# AZƏRBAYCANIN KLASSİK ƏDƏBİYYATI

Ədəbiyyat zəngin Azərbaycan mədəniyyətinin mühüm, ayrılmaz hissəsidir. Ədəbiyyatımızın əsası 1300 illiyi YUNESKO xəttilə bütün dünyada qeyd olunmuş əzəmətli xalq dastanı "Kitabi Dədə Qorqud"la qoyulub. Alman şairi və mütəfəkkiri Höte Nizami Gəncəvinin adını Şərqin ən böyük sənətkarları arasında çəkir. İmadəddin Nəsimi, Şah İsmayıl Xətai və Məhəmməd Füzulinin ədəbi irsi nəinki Azərbaycan, orta əsrlərdə bütün Şərq ədəbiyyatının əlçatmaz zirvələri hesab olunur.

Molla Vəli VIidadi və Qarabağ xanlığının vəziri Molla Pənah Vaqif yazılı ədəbiyyatımıza xalq dilinin təbabətini, folklor janrlarının rəngarəngliyini gətirdilər.

Milli ədəbiyyatın növbəti mərhələsi XIX əsr maarifçilərinin - Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə və Həsən bəy Zədabinin adları ilə bağlıdır. Müsəlman dünyasında dramaturgiyanın banisi olan Mirzə Fətəlinin komediyalarından birinin 1873-cü ildə Zərdabi və onun şagidləri tərəfindən səhnələşdirilməsi ilə Yaxın Şərqdə teatrın əsası qoyuldu. Həsən bəy Zərdabi həmçinin anadilli mətbuatımızın - "Əkinçi" qəzetinin yaradıcısı olmuşdur.

XX əsr Azərbaycan mədəniyyətinə geniş beynəlxalq şöhrət qazandırdı. 1906-cı ildə milli özünüdərk prosesində mühüm rol oynamış iki məşhur dərgi - Əlibəy Hüseynzadənin redaktə etdiyi "Füyuzat" və Cəlil Məmmədquluzadənin yaratdığı satirik "Molla Nəsrəddin" jurnalı nəşr olunmağa başladı. "Füyuzat" ətrafında Məhəmməd Hadi, Abbas Səhhət, Hüseyn Cavid, Abdulla Şaiq kimi romantik şairlər toplaşdı.

"Molla Nəsrəddin"lə görkəmli satirik şairi Mirzə Ələkbər Sabir, publisist Ömər Faiq, dramaturq Ə.Haqverdiyev, şairlər Ə.Qəmküsar, Ə.Nəzmi və s. mənsur yazıçı M.S.Ordubadi, bəstəkar Ü.Hacıbəyli, rəssam Əzim Əzimzadə əməkdaşlıq edirdilər. O vaxt gənc bəstəkar Ü.Hacıbəylinin "Leyli və Məcnun" muğam operasını 1908-ci ildə keçirilən premyera janrında müsəlman Şərqində opera janrının əsası qoyuldu.



Milli mədəniyyətin intibahı, vətənpərvərlik ruhunun yüksəlməsi, maarifçilik hərəkatının uğurlu cəmiyyətdə demokratik meyilləri möhkəmləndirdi və əlverişli tarixi şəraitdə 28 may 1918-ci ildə Şərqdə ilk dünyəvi Demokratik Respublika - Azərbaycan Xalq Cümhuriyyəti bəyan edildi.

Əhməd Cavad, C.Cabbarlı, Y.V.Çəmənzəminli, S.Hüseyn kimi görkəmli söz ustadları bu dövrdə yazıb-yaratmağa başladılar. Sovet hakimiyyəti dövründə H.Cavidin və C.Cabbarlının pyesləri Azərbaycan teatrının repertuarının əsasını təşkil edirdi.

20-ci illərin sonu 30-cu illərin əvvəllərində Süleyman Rüstəm, Səməd Vurğun, Mikayıl Müşfiq, Mikayıl Rəfili, Rəsul Rza, Məmməd Rahim, A.Faruk, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Nigar Rəfibəyli kimi şairlərin yaradıcılıq yolu başladı. Sovet dövrünün böyük şairi Səməd Vurğun "Vaqif", "Fərhad və Şirin" kimi geniş rəğbət qazanmış pyeslər yazmışdır. Azərbaycan poeziyasının novatoru Rəsul Rza "Sərbəst şeir"i poeziyamıza gətirmiş, onun ən mahir ustalarından olmuşdur.

Sovet dövründə ilk roman Əbdülhəsən, ilk sovet komediyası isə Sabit Rəhman tərəfindən yazılmışdır. Bu illərdə Süleyman Rəhimov, Mirzə İbrahimov, Mehdi Hüseyn, Mir Cəlal, Əli Vəliyevin romanları nəşr olunur, Ənvər Məmmədxanlı, İlyas Əfəndiyev, Mehdi Hüseynin qələminə məxsus lirik hekayə və pyeslər yazılır. İlyas Əfəndiyevin pyesləri uzun illər ərzində Azərbaycan teatrının repertuarında mühüm yer tutur.

Cənubi Azərbaycan ədəbiyyatı Həbib Sahil, Məhəmməd Hüseyn Şəhriyar, M.Biriya, H.Nitqi, B.Azəroğlu, Ə.Tudə, H.Billuri, M.Gülgün, S.Tahir, Səhənd və digərlərinin parlaq yaradıcılığı sayəsində inkişaf edib.

İkinci Dünya müharibəsindən sonrakı dövrün poeziyası Bəxtiyar Vahabzadə, Hüseyn Arif, İslam Səfərli, Nəbi Xəzri, Qabil, A.Kürçaylı kimi parlaq nümayəndələri ilə seçilir. B.Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürkə məxsus şeir və poemalar xalqın müstəqillik və azadlıq mübarizəsində güclü silaha çevrilir. Bu dövrün nəsri İmran Qasımov, İsmayıl Şıxlı, B.Bayramov, N.Abbaszadə, Ə.Cəfərzadə, H.Seyidbəylinin istedadlı əsərlərilə səciyyələnir.

Müasir Azərbaycan ədəbiyyatında xüsusi mərhələ 1960 və 70-ci illərə təsadüf edir.

Hazırda oxucular ədəbiyyatda yeni nəslin nümayəndələrinə böyük ümidlər bağlayırlar. Azərbaycan ədəbiyyatını və incəsənətini təşviq edən nəşrlərə görə, təşəbbüskarlara xüsusi təşəkkür payı düşür.

***ANAR,***
***Azərbaycan Yazıçılar Birliyinin sədri***

Kredo 2019.- 18 dekabr.- S.1.